# Bir cəllad əmri ilə...









1990-cı il yanvarın 20-də Moskva radiosu səhər-səhər ağzını yüz cür şər-böhtanla açmışdı. Gecə Bakıda "ekstremist"lərin sovet ordusunun əsgər və zabitlərinə əl qaldırdığı, onları qətlə yetirdiyi barədə ağ yalan söyləyirdi.

Soruşan yox idi ki, gecə yarısı qoşunun, əsgərin dinc şəhərin küçələrində nə işi vardı? Əlbəttə ki, onlar cəllad əmrini icra edir, vəhşilərin tapşırıqlarını yerinə yetirirdilər. Aldıqları məkrli sifarişləri, törətdikləri insanlığa sığmayan əməlləri ört-basdır etmək istəyənlər dinc əhalinin adını ekstremist qoymuşdular. O axşam küçəyə çıxan, öz ölkəsində "dinc sovet əsgəri"nin onlara atəş açacağını ağlına belə gətirməyən əliyalın insanlar məgər ekstremist idi? Evinin eyvanından boylanan qoca, atası ilə birlikdə küçəyə çıxan körpə də ekstremist idi?

Nahaq qan tökənlər sadəcə öz varvar hərəkətlərinə haqq qazandırmaq istəyirdilər. "Qarşına çıxan kim və nə varsa hamısını əz, biç, məhv et" tapşırığına əməl edərkən törətdikləri vəhşilikləri pərdələmək istəyirdilər. Etdiklərindən utanmayaraq, vicdan əzabı çəkməyərək "qara məni basınca, mən qaranı basım" prinsipi ilə hərəkət edirdilər.

*Fotolar Fərman BAĞIROVUN və Ağaəli MƏMMƏDOVUNDUR,*

***"Azərbaycan"***